# Zirə EKO Parkla tanışlıq

**Dekabrın 6-da Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təşviqi" mövzusunda təşkil etdiyi II Beynəlxalq konfransın iştirakçıları və icmanın üzvləri Zirə Mədəniyyət Mərkəzi - EKO Parkı ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə Eko Parkın ərazisində ağac əkiblər. Sonra konfrans iştirakçıları "Vətənim Qərbi Azərbaycan" rəsm və xalça sərgisi ilə tanış olublar. Həmçinin Zirə Mədəniyyət Mərkəzində Qərbi Azərbaycana həsr olunmuş rəsm əsərlərinə baxış keçirilib.

Xalçalarla tanışlıq zamanı iştirakçılar Qərbi Azərbaycan xalçalarının naxışları olan kiçikölçülü xalçaların toxunuşu prosesində də iştirak ediblər.

Sonda "Qərbi Azərbaycanın zəngin mədəni irsi" ("Rich cultural heritage of Western Azerbaijan") adlı film nümayiş etdirilib və konsert proqramı təşkil olunub.











azerbaijan-news.az

Azərbaycan.-2024.- 7 dekabr (№ 270).- S.5.